HƏYAT VƏ YARADICILIĞI

XX əsrin ikinci yarısında milli ədəbiyyatşünaslığın köklü problemlərinin həllində, aktual təmayüllərin aydınlaşmasında əzmlə çalışan alimlərimiz olub. Belə diqqətəşayan alimlərimizdən biri də görkəmli tənqidçi, ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor, Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Yaşar Qarayev olub.

Yaşar Vahid oğlu Qarayev 1936-cı il mart ayının 5-də Şəki şəhərində anadan olmuşdur. 1946-cı ildə ailəsi ilə birlikdə Bakıya köçmüş, burada 31 nömrəli şəhər orta məktəbini bitirmişdir. 1954-cü ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) filologiya fakültəsinə daxil olmuş, 1958-ci iidə ali təhsilini bitirmişdir. 1959-cu ildən Milli Elmlər Akademiyasında fəaliyyətə başlamış, 1963-cü ildə filologiya üzrə namizədlik, 1979-cu ildə doktorluq dissertasiyasını müdafiə etmişdir.

Akademiyada əmək fəaliyyətinə başlayan alim Nizami adına Ədəbiyyat Dil İnstitutunun şöbə müdiri (1975-1981), elmi işlər üzrə direktor müavini (1981-1985), daha sonra direktoru vəzifələrində çalışmışdır. 38 monoqrafik tədqiqat əsərinin və ədəbi-tənqidi məqalələr məcmuəsinin, 500-dən artıq məqalənin müəllifidir.

Ədəbi fəaliyyətə 1955-ci ildə “Lenin tərbiyəsi uğrunda” və “Azərbaycan gəncləri” qəzetlərində çıxışlarla başlamışdır. Onun tədqiqat obyekti ədəbiyyatşünaslıq, ədəbi tənqid, ədəbiyyat tarixçiliyi, teatrşünaslıq, estetika və humanitar elmlərin nəzəri-metodoloji problemlərini əhatə edirdi. 1964-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuş, əsərlərini “Yaşar”, “Q. Yaşar”, “Y. Qarayev” imzaları ilə dərc etdirmişdir.

1985-ci ildə professor elmi rütbəsini almış, 1990-cı ildə Azərbaycan Milli Yaradıcılıq Akademiyasının həqiqi üzvü, 2002-ci ildə isə AMEA-nın müxbir üzvü seçilmişdir. O, 1990-cı ildən Ali Attestasiya Komissiyasının, Azərbaycan Milli Yaradıcılıq Akademiyası Rəyasət Heyətinin üzvü və humanitar bölməsainin həmsədri, 1991-ci ildən isə Azərbaycan Yazıçılar Birliyinin tənqid və ədəbiyyatşünaslıq üzrə katibi olmuşdur.

1993-cü ildən Azərbaycanda daimi fəaliyyət göstərən Şəhriyar konqresi komitəsinin sədri kimi çıxış etmiş, “Ədəbi proses” adlı illik elmi-tənqidi məcmuənin təşəbbüsçüsü, müəlliflərindən biri və məsul redaktoru olmuşdur. Onun “Şərqin dahisi”, “Tənqid: problemlər, portretlər”, “Azərbaycan ədəbiyyatında faciə janrı”, “Tarix: yaxından və uzaqdan” kimi əsərləri ədəbiyyatşünaslıqda mühüm yer tutur.

Yaşar Qarayev həmçinin respublikanın elmi və ədəbi-mədəni həyatında da fəal iştirak etmişdir. O, “Dünya ədəbiyyatının inkişaf qanunauyğunluqları” problemi üzrə əlaqələndirmə şurasının sədri, Ədəbiyyat İnstitutu elmi şurasının, Memarlıq və İncəsənət İnstitutunun, Türkmənistan EA Dil və Ədəbiyyat İnstitutu elmi şurasının üzvü olmuş, Azərbaycan Yazıçılar İttifaqı İdarə Heyətində, Mədəniyyət Nazirliyi və “Yazıçı” nəşriyyatının bədii şuralarında fəaliyyət göstərmişdir. O, “Azərbaycan” və “Ulduz” jurnallarının, “Bilik” cəmiyyətinin, eləcə də ensiklopediya elmi redaksiya heyətlərinin üzvü olmuşdur.

SSRİ Yazıçılar İttifaqı Rəyasət Heyəti yanında Tənqid və ədəbiyyatşünaslıq şurasının, Azərbaycan Yazıçılar İttifaqının M. F. Axundov adına mükafat komissiyasının üzvü olmuş, 1994-cü ildən isə “Füzuli vəqfi” fondunun rəyasət heyətində çalışmışdır.

Yaşar Qarayev 1980-ci ildə Azərbaycan Dövlət mükafatı laureatı olmuş, 1982-ci ildə isə “Əməkdar elm xadimi” fəxri adına, "Məmməd Araz", "Həsən Turabov" mükafatlarına, "Əmək rəşadətinə görə" medalı ilə təltif olunmuşdur.

Yaşar Qarayev 27 yaşında namizədlik, 43 yaşında doktorluq müdafiə etmiş, 44 yaşında Dövlət mükafatı almış, 46 yaşında Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür. Onun rəhbərliyi ilə İsa Həbibbəyli, Tehran Əlişanoğlu, Rəhim Əliyev, Şirindil Alışanlı, Nizaməddin Şəmsizadə, Məhərrəm Qasımlı, Əziz Ələkbərli, Aydın Dadaşov, Tahirə Məmməd, Məryəm Əlizadə, Rüstəm Kamal, İsrafil İsrafilov, İsmayıl Vəliyev, İlham Rəhimli, Rahid Ulusel və başqa görkəmli alimlər yetişmişdir.

Görkəmli ədəbiyyatşünas və tənqidçi Yaşar Vahid oğlu Qarayev 2002-ci il avqust ayının 25-də vəfat etmiş, Fəxri Xiyabanda dəfn edilmişdir.

Azərbaycan ədəbiyyatının tarixi və nəzəriyyəsi, teatrşünaslıq, ədəbi tənqid və publisistika, estetika və mədəniyyətşünaslıq onun elmi yaradıcılığının əsas istiqamətləri olub. Hələ gənclik illərindən yaradıcılığı, tənqidçi kimi fəaliyyəti ədəbi prosesə, klassik irsin təhlilinə istiqamətlənir. Onun bədii metod nəzəriyyəsi, Renessans və maarifçilik, cari ədəbi proses, ədəbiyyat tarixçiliyində, ədəbi tənqiddə analitik-nəzəri məktəb və üslub apardığı tədqiqatların əsas mövzu və problemlərini təşkil edib. Şərqdə realizmin genezisi, tipologiyası barədə fundamental nəzəri ideyaları ümumtürk miqyasında problemlərin həlli üçün elmi məktəb və təlim rolunu oynayıb.

Azərbaycanda milli ədəbi tərəqqinin inkişafı, mərhələ təsnifi və bədii tipologiyası haqqında yeni konsepsiya da ilk dəfə alimin "Tarix: yaxından və uzaqdan" kitabında irəli sürülüb, "Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər" kitabında elmi həllini tapıb. Bu kimi məsələlər eyni zamanda onun "Faciə və qəhrəman", "Realizm: sənət və həqiqət", "Min ilin sonu" və s. kitablarında da geniş araşdırılıb.

Araşdırmalarda qeyd edilir ki, çağdaş milli ədəbiyyat tarixi gerçəkliklərinin ərsəyə gəlməsində Yaşar Qarayevin əməyi danılmazdır. Görkəmli alimin məqalələri Rusiya, İraq, İran və Türkiyədə elmi nəşrlərdə dərc edilmişdi. "Səhnəmiz və müasirlərimiz", "Tənqid: problemlər, portretlər", "Poeziya və nəsr", "Ədəbi üfüqlər", "Meyar şəxsiyyətdir" kimi kitabları onun sanballı bir elmi yaradıcılığa sahib olduğunun göstəricisidir.

Yaşar Qarayevin elmi fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilib. O, 1980-ci ildə "Poeziya və nəsr" kitabına görə Dövlət mükafatına, 1982-ci ildə isə filologiya elminin inkişafı və bu sahədə yüksəkixtisaslı kadrların hazırlanmasına görə "Əməkdar elm xadimi" adına layiq görülüb.

Görkəmli alim Ədəbiyyatşünaslıq üzrə müdafiə şurasının sədri, Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin, bir sıra elmi və bədii şuraların üzvü olub. Çingiz Aytmatov Akademiyasının, Atatürk Araşdırmalar Mərkəzinin, Şəhriyar Konqresinin üzvü seçilib.

Gərgin yaradıcılıq axtarışları sahəsində qazanılan bu nailiyyətlər onun həyat və fəaliyyətinə işıq salır, alimin geniş erudisiyası, yaradıcılığının miqyası və ictimai fəallığı barədə təsəvvür yaradır.

Yaşar Qarayev bir sıra beynəlxalq konfrans və simpoziumlarda Azərbaycanı layiqincə təmsil edib. Müasir ədəbi proseslərin, əlaqələrin və ədəbiyyat tarixinin müxtəlif problemlərinə həsr olunmuş məruzələri ədəbiyyatşünaslar tərəfindən maraqla qarşılanıb. Görkəmli alim səmərəli elmi fəaliyyətlə yanaşı, yüksəkixtisaslı kadrlar hazırlanması üçün də böyük əmək sərf edib. Rəhbərliyi altında onlarla elmlər namizədi və doktoru yetişib.

Əsərləri

Faciə və qəhrəman. Bakı: Azərbaycan SSR EA nəşriyyatı, 1965, 192 səh;

Səhnəmiz və müasirlərimiz. Bakı: Azərnəşr, 1972, 252 səh;

Tənqid: problemlər, portretlər. Bakı: Azərnəşr, 1976, 212 səh;

Poeziya və nəsr. Bakı: Yazıçı, 1979, 198 səh;

Realizm: sənət və həqiqət. Bakı: Elm, 1980, 258 səh;

Mirzə Fətəli Axundov. Bakı: Yazıçı, 1982, 36 səh;

Poeziyanın kamilliyi. Bakı: Yazıçı, 1985, 192 səh. (şərikli);

Ədəbi üfüqlər. Bakı: Gənclik, 1985, 286 səh;

İlyas Əfəndiyev. Bakı: Azərbaycan SSR "Bilik" Cəmiyyəti, 1987, 50 səh;

Meyar-şəxsiyyətdir. Bakı: Yazıçı, 1988, 494 səh;

Xan bülbülün nağılı. Bakı: Azərnəşr, 1994, 56 səh;

Tarix: yaxından və uzaqdan. Bakı: Sabah, 1995, 712 səh;

Şərqin dahisi. Bakı: Azərbaycan Ensiklopediyası, 1996, 52 səh;

Seçilmiş əsərləri. Beş cilddə. C. 1. Bakı: Elm, 2015, 664 səh;

Seçilmiş əsərləri. Beş cilddə. C. 2. Bakı: Elm, 2015, 629 səh;

Seçilmiş əsərləri. Beş cilddə. C. 3. Bakı: Elm, 2015, 907 səh;

Seçilmiş əsərləri. Beş cilddə. C. 4.Bakı: Elm, 2016, 772 səh;

Seçilmiş əsərləri. Beş cilddə. C. 5. Bakı: Elm, 2016, 727 səh.